UOT 371.32

MƏTANƏT MƏMMƏDOVA
tarix üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin dosenti
ORCID:0000-0002-7069-1922
metanet.memmedova.61@mail.ru

QƏRBİ AZƏRBAYCAN ZİYALILARININ ELM VƏ TƏHSİLİMİZİN İNKİŞAFINDA ROLU

DOI: https://doi.org/10.36719/2708-065X/112/260-264

Məqaləni yazmaqda məqsəd öz doğma yurd-yuvalarından qovulmuş, deportasiya edilmiş soydaşlarımızın haqq səsini dünyaya çatdırmaq, ən qədimdən azərbaycanlıların yurd yeri olan Qərbi Azərbaycan torpaqlarının tarixinə, ictimai-siyasi,sosial-mədəni həyatına, xüsusilə də, XIX-XX əsrlərdəki təhsil sisteminə bugünün aktual prizmasından yanaşmaqdır. Məhz "İkinci Qarabağ" müharibəsindən sonra daha da aktual olan "Qayıdış konsepsiyası", yəni azərbaycanlıların Qərbi Azərbaycana qayıdışı beynəlxalq hüquq normalarına cavab verməklə yanaşı, həm də tarixi ədalətin bərpası deməkdir. Bu nöqteyi-nəzərdən mövzu aktual və əhəmiyyətlidir. Əsas məsələ arxiv sənədlərində, mənbələrdə tarixi qorunan İrəvan Müəllimlər Seminariyasını, İrəvan Kişi Gimnaziyasını, Uluxanlı məktəbini, bu təhsil ocaqlarını bitirən, elmimizə, təhsilimizə böyük töhfələr verən Qərbi Azərbaycan alim ziyalılarımızı, müəllim və tarixi şəxsiyyətlərimizi xalqın qan yaddaşında, mənəviyyatında yaşatmaq, onların Azərbaycan elminin, maarifinin inkişafında özünəməxsus yeri olduğunu vurğulamaqdan ibarətdir.

Açar sözlər: Qərbi Azərbaycan,Qayıdış Konsepsiyas, maarif, seminariya, ziyalı.

Giriş. Ümummilli lider Heydər Əliyev Ermənistan haqda qeyd edirdi: "Ermənistan deyəndə, o ərazinin keçmişdə kimə mənsub olduğu məlumdur. O ərazinin çox hissəsi azərbaycanlıların əsrlərdən-əsrlərə yaşadıqları doğma diyar olubdur. Onları öz dədə-baba yurdlarından tədricən çıxarıblar və bunlar hamısı da 1988-ci ildə Ermənistanın Azərbaycana artıq hərbi təcavüzünün başlanmasına gətirib çıxarıbdır" (1, 10). Qərbi Azərbaycanda XIX əsrdə elm, təhsil çox yüksək səviyyədə inkişaf edirdi, onun əyani sübutu kimi 1881-ci ildə İrəvan mahalında İrəvan Müəllimlər Seminariyasının, İrəvan kişi Gimnaziyasının, İrəvan qız progimnaziyasının, yeni tipli Uluxanlı məktəbinin, bir çox məhəlli və digər məktəblərin yaradılması idi. İrəvan Gimnaziyada təhsil müddəti 4 il müəyyən edilmiş, onun ilk buraxılışı 1885-ci ildə olmuşdur. 1883-cü ildə pansion-məktəb tipli İrəvan Gimnaziyasında 37 azərbaycanlı təhsil alırdı. XIX əsrin II yarısında Rusiya imperiyasında aparılan islahatlar təhsilin məzmununa və keyfiyyətinə əsaslı təsir göstərdi.1830-cu ildən yaradılan qəza məktəbləri 1868-ci ildən iki və üç əsas sinifli məktəblərə çevrildi. 1871-ci il 30 iyulda "Gimnaziya və progimnaziyalar", 1872-ci il 15 mayda isə "Realnı məktəblər və şəhər məktəbləri" üçün nizamnamələr qəbul edildi (2, s.63) Birsiniflidən dördsinifliyə qədər nəzərdə tutulan şəhər məktəbləri Çar hökumətinin 31 may 1872-ci il tarixli nizamnaməsinə əsasən ya dövlət, ya zemstvo, ya da şəhər icması və xüsusi şəxslərin hesabına açıla bilərdi. Bu nizamnamədən sonra Cənubi Qafqazın, o cümlədən İrəvan Quberniyasının da məktəb və maarifinin inkişafı üçün əlverişli şərait yarandı. Naxçıvan şəhər məktəbində Rusiya, Qərb dövlətlərinə dair məlumatlarla yanaşı, yerli diyarşünaslıq məsələlərinin, Şərq tarixi və mədəniyyətinin tədrisi, Azərbaycanın milli tarixi və mədəniyyətinə dair biliklərin verilməsi bu məktəbin dünyəviliyini sübut edən amillərdən idi. İrəvanda 1880-ci ildə 60 şagirdi olan şəhər ibtidai məktəbi açıldı (3, s.245). 1891-ci il statistikasına görə, İrəvan quberniyasında məktəblərin sayı 117 idi ki, onlardan İrəvan şəhərində yerləşən klassik gimnaziyanı, iki qadın progimnaziyasını, İrəvan Müəllimlər Seminariyasını, dövlət adi məktəblərini, 12 ümumi məktəbi, 9 zemski məktəbini, kilsə-prixod məktəblərini, 28 məscid (mədrəsə) məktəblərini və digərlərini göstərmək olar (4, s.87).

İrəvan gimnaziyası məzunları. Azərbaycanın əzəli torpaqları olan indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşamış, onun ziyalıları nəinki Azərbaycanda elm və təhsilin inkişafında böyük rol oynamış, hətta tanınmış alimlər olub, dünya elminə də töhfələr vermişlər. İrəvan Kişi

Gimnaziyasının məzunlarından olan dünya şöhrətli alimlərin, ictimai xadimlərin adlarını çəkə bilərik, hansı ki, onlar - akademik Mustafa bəy Topçubaşov Kiyev universitetində, görkəmli alim və ictimai xadim Əziz Əliyev Peterburq Hərbi Akademiyasında, məşhur alim, 1950-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyası Dil İnstitutunun direktoru işləmiş Miryusif Mirbabayev, ictimai xadim Maqsud Məmmədov Moskva Universitetində, akademik Əhməd Rəcəbli İtaliyanın Peruça şəhərində Ali Kral Eksperimental Aqrar İnstitutunda, ziyalı ocağının layiqli övladları Adil və Əslidar Muğanlinski qardaşları Almaniyanın Leypsiq Universitetində sonralar təhsillərini davam etdirmişlər. Həmçinin, Akademik Heydər Hüseynov, böyük bəstəkarımız Səid Rüstəmov, görkəmli elm xadimi və ictimai xadim Həsən Seyidov, Hüseyn Şahtaxtinski, Mirhəsən Mirbababayev, Əbdülhəmid Qənizadə ilk təhsillərini İrəvan Kişi Gimnaziyasında almışlar. Mustafa bəy Topçubaşov Sankt-Peterburq universitetinin ilk azərbaycanlı professoru Mirzə Cəfər Topçubaşov və AXC-nin ilk parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun görkəmli nəslinin nümayəndələrindəndir. 1895-ci ildə İrəvanda doğulan Mustafa bəy orta təhsilini İrəvan Gimbaziyasında almış, sonra 1919-cu ildə Kiyev Dövlət Universitetinin tibb fakültəsini bitirmişdir. Mustafa bəy cərrah, ictimai xadim, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan EA-nın və SSRİ Tibb EA-nın həqiqi üzvü, Bolqarıstan EA-nın müxbir üzvü, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı olmuşdur. M.Topçubaşov 7 monoqrafiya, 5 cilddə "Xüsusi cərrahlıq" dərsliklərinin, ümumilikdə 160 elmi işin müəllifidir. Görkəmli ziyalı Ümumittifaq Cərrahlar Cəmiyyətinin, Azərbaycan Cərrahlar və Uroloqlar Cəmiyyət Cəmiyyətinin fəxri sədri olmuş, dəfələrlə Azərbaycan Ali Sovetinə deputat seçilmiş, 1955-1959-cu illərdə Ali Sovetin sədri olmuşdur.

Azərbaycanın görkəmli ziyalılarından olan Əziz Əliyev 1897-ci ildə İrəvanda anadan olmuş, ilk təhsilini Abdulla bəy Muğanlinskinin pansionatında almışdır. İrəvan gimnaziyasını qızıl medalla bitirdikdən sonra Peterburqda Hərbi-Tibb Akademiyasına daxil olmuşdur.1923-cü ildə Bakıya köçən Əziz Əliyev Xalq Komissarları Şurasında işləmiş, Tibb institutunda təhsil alaraq, oranı 1927-ci ildə bitirmişdir. 1920-1930-cu illərdə bir sıra məsul vəzifələrdə çalışan Əziz Əliyev 1936-1937-ci illərdə Tibb institutunun direktoru, ADU-nun rektoru vəzifələrində çalışmış, dokrotluq işini müdafiə etmişdir. 1938-1939-cu illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, 1939-1941-ci illərdə Xalq səhiyyə komissarı, 1941-ci ilin martından 1942-ci ilin sentyabrına qədər Azərbaycan KP MK-nın katibi, 1948-ci ilin dekabrınadək Dağıstan Vilayət Partiya Komitəsinin birinci ktibi vəsifəsində çalışmışdır. Ə.Əliyev 1952-56-cı illərdə Elmi-Tədqiqat Ordopedoya və Bərpa cərrahlığı İnstitutunun direktoru, 1956-cı ildən ömrünün sonunadək Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru işləmişdir. Əziz Əliyev dəfələrlə SSRİ, RSFSR, Azərbaycan SSR və Dağıstan MSSR Ali Sovetlərinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur (5).

İrəvan Müəllimlər seminariyasını bitirmiş ziyalılarımızdan biri olan Mirzə Məmmədvəli Qəmərli 1898-ci ildə İrəvanda rus-tatar məktəbini bitirmiş, 1900-cü il martın 13-də İrəvan quberniya məclisində imtahan verərək müəllim adı almış, 1901-1911-ci illərdə İrəvan rus-tatar seminariyasında müəllim işləmişdir. Son vaxtlar aparılmış araşdırmalardan bəlli olur ki, Məmmədvəli Qəmərlinin atası Əli Qəmərli çar ordusunun generalı olmuş, babasının yolunu davam etdirən Məmmədvəlinin oğlu Hüseyn Qəmərli də türk ordusunun generalı rütbəsinə yüksəlmişdir. İkinci oğlu Əli Qori Müəllimlər Seminariyasını, digər oğlanları Paşa, Adil, Mahmud isə gimnaziyanı bitirib müəllim işləmişlər. Qəmərlinskilər İrəvan xanlığının mahallarından olan və İrəvan şəhərinə yaxın ərazidə yerləşən Qəmərli (Gərnibasar) mahalının adını özlərinə soyad kimi qəbul etmişlər. 1899-cu ildə İrəvanın "Edelson" mətbəəsində çap olunan "Atalar sözü" kitabının titul səhifəsindən bəlli olur ki, bu toplu İrəvan Müəllimlər Seminariyasının türk dili müəllimi Mirzə Məmmədvəli Qəmərlinin əsəridir. 1907, 1908 və 1911-ci illərdə dəfələrlə dərc edilmiş "Ana dili" kitablarının müəllifləri sırasında Məmmədvəli Qəmərlinin də adı vardır. 1926-cı ildən nəşrə başlayan "Zəngi" qəzetinin (sonralar "Sovet Ermənistanı") 12 və 19 yanvar 1926-cı il tarixli 5 və 6-cı saylarında "o vaxtın adamı" imzalı bir müəllifin "Ermənistan türklərinin mədəniyyəti barəsində" məqaləsindən məlum olur ki, Məmmədvəli Qəmərli həm də 1900-cü ildə dərc edilmiş "Vətən dili" kitabının müəllifi olmuşdur. Məqalədə çar üsul-idarəsi dönəmində Azərbaycan türkcəsinin (dilinin) təqiblərə məruz qalmasından, yerli sakinlərin acınacaqlı durumundan, Məmmədvəli Qəmərlinin vəziyyətinin ağırlığından, o cümlədən maarif sahəsində çalışan ziyalıların müxtəlif təzyiqlərlə üzləşmələrindən söz açılmışdır (6, № 5-6). İrəvan Gimnaziyasının

pansionunda görkəmli ədəbiyyatşünas alim, Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində ən böyük fondu olan, Əməkdar Elm Xadimi Əziz Şərif də hazırlıq mərhələsi keçmiş, sonra İrəvan Kişi Gimnaziyasında təhsilini davam etdirmişdir. Əziz Şərif xatirələrində yazırdı: "İrəvanda pansionda yaşayan zaman atam mənə fars dili müəllimi tapmışdı. Bəxtimdən mənim İrəvandakı müəllimim olduqca bilikli və təcrübəli idi. Cabbar bəy Məmmədovun atası Mirzə Abbas fars dilinin mütəxəssisi olduğu üçün "Fars Abbas" adı ilə şöhrət tapmışdı. Fars Abbas İrəvanda mənim xüsusi müəllimim oldu. O zaman farsca təlim kitabı əvəzinə fars klassik ədəbiyyatından dərs verilirdi. Mənim müəllimim təlim üçün Sədinin "Gülüstan"ını seçmişdi… Eyni zamanda unudulmaz qocaman müəllimim fars dilinin sərf-nəhvini də mənə öyrədir, fellərə aid çətin qanunları mənə əzbərlədirdi. İrəvanda Mirzə Abbasın bir il müddətində mənə verdiyi dərslər, əzbərlətdiyi şeirlər bu gün də yadımdadır və dərin təşəkkürlə etiraf etməliyəm ki, mənim bu gün farsca az-çox oxuyub yazmağıma bais ilk növbədə müəllimim Mirzə Abbasdır"(2).

Mirzə Abbas 1864-ci ildə tacir ailəsində anadan olmuş, İsfahanda fars dilini öyrənmiş, İrəvanda mədrəsədə təhsil almışdır. 1881-ci ildə İrəvanda açılan müəllimlər seminariyasında ərəb və fars dillərindən dərs demişdir. 1912-ci ildə Bakıda "Orucov qardaşları" mətbəəsində "Güldəstə" adlı dərsliyi fars dilində çapdan cıxmışdır. 1913-cü ildə onun eyni zamanda Bakıda, Tiflisdə və İrəvanda fars dilində "Bədrağatül-Əftal" ("Balalara hədiyyə"), "Самоучителъ фарсидкого языка для русских" dərslikləri nəşr edilmişdir. 1918-ci ildə İrəvanda törədilən qırğınlar zamanı Təbrizə pənah gətirmişdir. Onun böyük oğlu Cabbar Məmmədzadə (1882-1937) İrəvan müəllimlər seminariyasını 1902-ci ildə bitirmiş, 1907-ci ildən həmin seminariyada müəllim işləmişdir. 1918-ci ilin avqustunda müəllimlər seminariyası bağlandıqdan sonra Naxçıvana gəlmiş, iki il oradakı ali ibtidai məktəbdə dərs demişdir. Həmin illərdə onun 3 kitabı ("Самоучителъ тюрского языка для русских", "Самоучителъ русского языка для тюрок", "Самоучителъ русского языка для персов") nəşr olununr. O, 1920-ci ildə Bakıya köçmüş və ali məktəblərdə mühazirələr oxumuşdur. 1937-ci ildə "Azərbaycanda tədris metodikası tarixi" adlı əsərinə görə ona pedaqoji elmlər doktoru elmi dərəcəsi verilmişdir (4).

Eynəli bəy Sultanov 1880-1886-cı illərdə İrəvan Kişi Gimnaziyasında təhsil almış və buradan 1886-cı il 5 iyun tarixində 538 saylı müəllimlik hüququ verən Şəhadətnamə ilə məzun olmuşdur. Gimnaziyanı bitirdikdən sonra Eynəli bəy 1886-1891-ci illərdə fasilələrlə Naxçıvanda yaşamış, Qarsda "Mühüm işlər üzrə məmur" vəzifəsində çalışmışdır. Yazıçı, şair, dramaturq, publisist, tərcüməçi, pedaqoq, teatr xadimi, teatr tənqidçisi, ictimai xadim olan Eynəli bəy (Çölbəyi bəy) Naxçıvan ziyalıları içərisində öz biliyinə, bacarığına və təşkilatçılığına görə fərqlənirdi. Sultanov hələ 1882-ci ildə öz evində "Ziyalılar cəmiyyəti" təşkil etmiş, qabaqcıl adamlarla, savadlı gənclərlə, məsləkdaşlarla əlaqə saxlayaraq, şəhərin bütün tərəqqipərvər, açıq fikirli adamlarını bu cəmiyyətə cəlb etmişdi. Eynəli bəy böyük həvəslə dostlarından Paşa ağa Sultanov, Mirzə Ələkbər Süleymanov, Qurbanəli Şərifov, Nəsrulla və Fərəculla Şeyxov qardaşları (Şeyxovlar şair Əliqulu Qəmküsar Nəcəfovun dayıları olub) ilə birlikdə ilk mədəni tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışdır.

Uluxanlı məktəbinin məzunları. XIX əsrdə səs üsulu ilə ana dili dərsliklərinin meydana gəlməsi, böyük rus pedaqoqu K.D.Uşinskinin "Vətən dili" və "Uşaq aləmi" dərsliklərinin məşhurluğu Zaqafqaziyada özünə bir çox ardıcıllar tapmışdı. Belə ardıcıllardan biri də Zaqafqaziyada İrəvan Kişi Gimnaziyasında 30 ilə qədər Azərbaycan dili müəllimi olmuş əslən Uluxanlıdan olan Mirzə Ələkbər Elxanov idi. "M.Ə. Elxanov şəhərdəki Şah Abbas məscidi nəzdindəki mədrəsədə mükəmməl təhsil almışdı. Onun səs üsulu həm pansionda, həm də gimnaziyada fars dilindən dərs deməsi, tələbkar bir müəllim kimi şagirdlərinin rəğbətini qazanması, ədəbi-bədii cəhətdən dolğun məzmunlu şeirlər yazması onu daha məşhur etmişdi. Onun tərtib etdiyi "Vətən dili" dərsliyi XIX yüzilliyin 80- ci illərində Rusiya Xalq Maarif Nazirliyində müzakirə edilərək çapa tövsiyə edilmişdir." XIX əsrin sonlarına doğru İrəvanda yeni məktəblər açılır, şəhərin teatr həvəskarları tez-tez tamaşalar göstərirdilər. "Rus-Azərbaycan" qız məktəbləri əhalinin rəğbətini qazanmışdı. "Müdiri Haşım bəy Nərimanbəyov olan məktəbin, İrəvan gimnaziyasının müəllimlərindən İsmayıl bəy Şəfibəyov, İrəvan Müəllimlər Seminariyasının Azərbaycan dili müəllimi Rəhim Xəlilov, Mirzə Məmmədvəli Qəmərlinski, Axund Məmmədbağır Tağızadə və başqalarının bu sahədəki xidmətləri danılmazdır. Cox təəssüflə qeyd etməliyik ki, İrəvan Gimnaziyasının fəaliyyətinə 1919-cu ildə ermənilər son qoymuşlar" (2, 68).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İrəvan mahalı Uluxanlı məktəbinin 125 illik yubileyi haqqında 2006-cı il 29 dekabr tarixli sərəncamında qeyd edildiyi kimi: «...Bünövrəsi 1881-ci ildə qoyulan Uluxanlı məktəbi də həmin vaxtlar əhalisinin böyük əksəriyyəti azərbaycanlılardan ibarət olan İrəvan mahalında maarifçilik ideyalarının yayılması sahəsində mühüm rol oynamışdır. Dövrün görkəmli maarifçiləri məktəbin zəngin ənənələr zəmnində inkişaf etdirilməsi işində mühüm xidmətlər göstərmişlər. Böyük mütəfəkkir Cəlil Məmmədquluzadənin ilk müəllimlik fəaliyyətinə başladığı bu məktəb ədibin təşəbbüsü sayəsində qabaqcıl maarif və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir" (7). Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayındakı nitqində söyləmişdir: "Onu da qeyd etməliyəm ki, biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq"(8).

Nəticə. Beləliklə, deyə bilərik ki, pedaqoji kadrların hazırlanmasında İrəvan pedaqoji mühitinin rolu və xidmətləri böyük olmuşdur. Bu mühitin ziyalıları, müəllimləri, tələbələri yalnız tədris işləri ilə məşğul olmamış, həm də böyük ictimai-siyasi, elmi pedaqoji və metodiki işlər həyata keçirmişlər. Onlar bir çox dərslik və dərs vəsaiti yazmış, lüğətlər tərtib etmiş, teatr tamaşaları yaratmış, xalqın maariflənməsində fədakarcasına çalışmışlar. Prezident İlham Əliyevin tapşırığı ilə hazırlanan "Qərbi Azərbaycana Qayıdış" konsepsiyasının cəmiyyətdə təzahürünü yalnız nəzəri cəhətdən deyil, əməli fəaliyətdə də bir çox irəliləyişlərə səbəb olduğunu görürük. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İrəvan Müəllimlər Seminariyasının 140 illiyi ilə əlaqədar 29 dekabr 2021-ci il tarixində imzaladığı sərəncam bütün ziyalıların, o cümlədən tarixçi tədqiqatçılarının qarşısında prioritet vəzifələr qoyur. Qarabağımızı 30 ilə yaxın işğal altında saxlayan bugünkü Ermənistan Respublikasının hərbi birləşmələri 2020-ci ilin payızında 44 günlük İkinci Qarabağ müharibəsi-Vətən müharibəsində Dəmir Yumruq nəticəsində ölümcül zərbələrini aldılar. Qarabağımız azad olundu, indi yenidənqurma, çiçəklənmə dövrünü yaşayır. Biz əminik ki, Sülhlə Qərbi Azərbycanımız-Zəngəzurumuz, Göyçəmiz də azad ediləcək, Azərbaycanın bütövlüyü bərpa olunacaq, tarixdə adları həkk olunmuş ziyalılarımızın ruhu şad olacaq və "Qərbi Azərbaycana Qayıdış" konsepsiyası ədalətin bərpasına və qələbəsinə çevriləcək.

ƏDƏBİYYAT

1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Onuncu kitab, may, 1997- iyul, 1997, Bakı: Azərnəşr, 2002.
2. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı, 1985.
3. Kafkazskiy Kalendar na 1893 qod.Tiflis, 1892, Adres-Kalendar, Kafkazskiy Uçebnıy Okruq, s.245.
4. Obzor Yerivanskoy qubernii za 1891 qod.Yerivan: Tipoqrafiya P.K.Edelsona, 1892, s.87.
5. Ağayev Rövşən.Tarixi maarif ocağı: İrəvan gimnaziyası və tanınmış məzunları. 17 sentyabr 2023. - https://muallim.edu.az/news.php?id=26201 [15.12.2025].
6. "Zəngi"("Sovet Ermənistanı")12, 19 yanvar 1926-cı il, № 5-6.
7. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İrəvan mahalı Uluxanlı məktəbinin 125 illik yubileyi haqqında 2006-cı il 29 dekabr tarixli sərəncamı.
8. Əliyev İlham. YAP-ın VI qurultayında nitq. 08 fevral, 2018. - www.yap.org.az/az/view/news/25136/ [15.12.2025].
9. XIX əsrin sonu - XX əsrin əvvəllərində Qarabağda maarif. "Qarabağa aparan yol" qəzeti, Jvfs 9(017) 7 may.
10. Əmrahov Ziyad. İrəvan quberniyasının tarixi (1850-1917). Bakı: Nurlar NPM, 2022, 368 s.

МАТАНАТ МАММАДОВА
Доцент Бакинского государственного университета

РОЛЬ ЗАПАДНОЙ АЗЕРБАЙДЖАНСКОЙ ИНТЕЛЛЕКТУАЛИИ В РАЗВИТИИ НАШЕЙ НАУКИ И ОБРАЗОВАНИЯ

Цель написания статьи – донести до мира подлинный голос наших соотечественников, изгнанных и депортированных с родных земель, рассмотреть историю, общественно-политическую, социально-культурную жизнь земель Западного Азербайджана, являющихся родиной азербайджанцев с древних времен, особенно систему образования XIX-XX веков, с призмы сегодняшнего дня. «Концепция возвращения», ставшая ещё более актуальной после «Второй Карабахской» войны, то есть возвращение азербайджанцев в Западный Азербайджан, не только соответствует нормам международного права, но и означает восстановление исторической справедливости. С этой точки зрения тема актуальна и важна. Главное – сохранить в памяти народа Иреванскую учительскую семинарию, Иреванскую мужскую гимназию, школу Улуханлы, история которых сохранилась в архивных документах и источниках, наших западноазербайджанских учёных, интеллигентов, педагогов и исторических деятелей, окончивших эти учебные заведения и внесших большой вклад в нашу науку и образование, и подчеркнуть их уникальное место в развитии азербайджанской науки и образования.

Ключевые слова: Западный Азербайджан, Концепция возвращения, образование, семинария, интеллигенция.

MATANAT MAMMADOVA
Associate professor of Baku State University

THE ROLE OF WESTERN AZERBAIJAN INTELLECTUALS IN THE DEVELOPMENT OF OUR SCIENCE AND EDUCATION

The purpose of writing the article is to convey the true voice of our compatriots who were expelled and deported from their native lands to the world, to approach the history, socio-political, socio-cultural life of the lands of Western Azerbaijan, which has been the homeland of Azerbaijanis since ancient times, especially the education system of the 19th-20th centuries from the current prism of today. The “Return Concept”, which became even more relevant after the “Second Karabakh” war, i.e. the return of Azerbaijanis to Western Azerbaijan, not only meets the norms of international law, but also means the restoration of historical justice. From this point of view, the topic is relevant and important. The main issue is to keep alive the Iravan Teachers’ Seminary, Iravan Men’s Gymnasium, Ulukhanli School, the history of which is preserved in archival documents and sources, our Western Azerbaijan scholars, intellectuals, teachers and historical figures who graduated from these educational institutions and made great contributions to our science and education, in the blood memory and spirituality of the people, and to emphasize their unique place in the development of Azerbaijani science and education.

Keywords: Western Azerbaijan, Concept of Return, education, seminary, intellectual.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 dekabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. İbrahim Zeynalov.